**Nazlı ALLAHVERDİYEVA**
Musiqişünas
T.Quliyev adına 12 nömrəli Onbirillik Musiqi Məktəbi
Bakı şəhəri, Səbail rayonu, Yusif bəy İbrahimli 6
E-mail: bintulhuseyn@gmail.com

DOI: 10.62440/AMK2025-1.s.97-107

# ELNARƏ DADAŞOVANIN ORQAN YARADICILIĞI

***Xülasə:*** *Azərbaycan bəstəkarlarının yaradıcılığında orqan alətinin zəngin tembr imkanlarını, onun möhtəşəmliyini bilərək təcrübədə istifadə etmələri, alətin geniş potensial imkanlarının – folklor musiqisi, aşıq havaları, nəhayət muğamın intonasiyaları dilində "danışdırmaları" ümumilikdə orqan musiqisinin qollarını milli ruhda şaxələndirərək zənginləşdirən amillərdəndir. Bu mənada Elnarə Dadaşovanın orqan üçün yazılan əsərləri də özünəməxsusluğu ilə seçilir. Bəstəkarın orqan əsərlərinin təhlilini apararaq onun özünəməxsus dəst-xəttini izləmək, hər bir əsərin ideyasını anlamaq, Avropa alətinin milli ruha bəstəkar tərəfindən necə köklənməsini tədqiq etmək qarşıya qoyulan əsas məqsədlərdəndir.*

***Açar sözlər:*** *orqan, musiqi, bəstəkar, təhlil, muğam, məqam, Elnarə Dadaşova*

Orqan alətinin ilk dəfə müsəlman şərqində – Azərbaycanda "qərarlaşaraq" öz həyatını yeni "mühitdə" yaşaması XX əsrin əvvəllərinə təsadüf edir. Təbii olaraq, öncə alətin səslənməsinin heyranı olaraq ifaçılıq sahəsi yarandı, sonra onunla bağlı olaraq tədricən bəstəkarların diqqət mərkəzinə çevrilən "alətlərin kralı" üçün əsərlər yazılmağa başlayır. İlk addımlar bilavasitə ümumi ab-havanı, hadisələrin gedişatını təsvir edərək Q.Qarayevin yaradıcılığında öz əksini tapır. "İnsan məskən salır" filmində bəstəkar həm dənizin möhtəşəm və sirli boyasını, həm də bu məkanda olan insanların iç dünyasını göstərmək üçün orqanın zəngin tembr xüsusiyyətlərinə müraciət edir. Onun ardınca XX əsrin II yarısında bir çox bəstəkarlar qələmini sınayaraq Azərbaycanın musiqi xəzinəsinə daxil olan muğamın mürəkkəb və eyni zamanda ciddi qanunauyğunluqlarına söykənən təbiətinə xas mövzunun müəyyən qəlib daxilində improvizəli inkişaf xüsusiyyətini orqanın tembrinə "qovuşdurur". Bir qisim bəstəkarlar aşıq musiqisinin ritmik xüsusiyyətlərini, sazın səslənməsindəki özünəməxsus orkestrəbənzər "ovsunlu" xüsusiyyətini orqanla "uzlaşdıraraq" alətin səslənməsini bir qədər zənginləşdirirdilər.

Azərbaycan musiqisinin zəngin palitrasını təbii olaraq folklor musiqisindən – mahnı və rəqslərdən ayrı təsəvvür etmək mümkün deyil. Onlara fərqli prizmadan yanaşaraq (ona köklənərək) bir sıra xalq mahnıları öz yeni ifadəsini orqan

alətinin səslənməsində tapmışdır. Bura mərasim musiqisini də əlavə edərək Azərbaycan bəstəkarlarının yaradıcılığında fərqli baxış bucağından özəl həllini tapan, bir-birinə bənzəməyən əsərlər yaranır. Z.Bağırov, N.Əliverdibəyov, N.Məmmədov, V.Adıgözəlov, X.Mirzəzadə, A.Əlizadə, A.Mirzəyev, F.Əlizadə, R.Həsənova, C.Abbasov, E.Mənsurov və hələ irəlidə neçə-neçə bəstəkarın yeni-yeni əsərləri bu alət üçün yazılaraq orqan musiqisini zənginləşdirmiş olacaq. Bir məqamı da qeyd etmək lazımdır ki, yazılan əsərlər arasında milli kökə istinad edərək onun XVIII əsrin bəlkə də bir qədər əvvəl mövcud olan Avropa musiqi janrlarına, yazı üslubuna yeni şəkildə yanaşan bəstəkarlar arasında A.Mirzəyevin özünəməxsus dəst-xəttə malik bəstəkarlardandır.

Adlarını qeyd etdiyimiz bəstəkarlar arasında Əməkdar İncəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Elnarə Dadaşova da orqan musiqisinə müraciət edərək yazdığı əsərlərə öz möhürünü qoyan bəstəkarlardandır. Vətənə, torpağa bağlılığı onun vətəndaş mövqeyini göstərməklə yanaşı, maarifçilik xüsusiyyətlərini də vurğulayaraq artıq bəstəkar olmaqla yanaşı bir pedaqoqun da simasını göstərmiş olur.

Azərbaycan bəstəkarlarının yaradıcılığında orqan alətinin zəngin tembr imkanlarını, onun möhtəşəmliyini bilərək təcrübədə istifadə etmələri, alətin geniş potensial imkanlarının – folklor musiqisi, aşıq havaları, nəhayət muğamın intonasiyaları dilində “danışdırmaları” ümumilikdə Azərbaycan orqan musiqisinin qollarını şaxələndirərək zənginləşdirir. Bu mənada E.Dadaşovanın orqan üçün yazılan əsərləri də özünəməxsusluğu ilə seçilir.

Elnarə Dadaşova XX əsrin II yarısı Azərbaycan musiqi mədəniyyətini təmsil edən parlaq bəstəkarlardan biri olaraq dövrünün böyük dühası Q.Qarayev məktəbinin yetirməsidir. Yaradıcılığı çoxşaxəli olan bəstəkarın istər irihəcmli, istərsə də kiçik həcmli əsərlərində ön planda hər zaman vətənə, anaya olan məhəbbət hissi sülh, həmrəylik kimi hisslərlə qovuşur, milli dəyərləri onları qorumaqdan ötrü bir mübariz maarifçi kimi öz əsərlərində yaşadan bəstəkar dinləyicisini düşünməyə çağırır. Bu ilk növbədə peşəkar qələm sahibinin vətəndaşlıq mövqeyini nümayiş etdirən ən vacib xüsusiyyətlərindən biri kimi yaradıcılığında qırmızı xətt kimi keçir.

Əsərlərin bir qismi folklor nümunələrinə söykənərək mahnının bir janr kimi xüsusiyyətindən irəli gələrək mövzusu yığcam, lakonik olmaqla yanaşı, kiçik ambitus çərçivəsində inkişaf edir. Bəstəkar alətə yanaşmada onun əzəmətini, möhtəşəmliyini, müxtəlif tembrlər “dünyasını” bilərək ona bir başqa qisimdə yanaşmış, onu, yəni aləti dialoqa çağıraraq öz dinləyicisinə ünvanlanan intonasiyalar kodunu çatdırır. Məhz təkcə bu xüsusiyyətində bəstəkarın sırf ona xas olan yanaşmasını müşahidə etmək olur. Eyni zamanda xalq mahnılarının da (“Əlində sazın qurbanı”, “Süsən sünbül”, “Sarı gəlin”, “Ninni” və b.) ruhunu onlara yeni nəfəs verərək yaşatmış olur.

Digər qisimdə onun sevərək yad etdiyi müəllimlərinə – Ə.Hüseynzadəyə, Q.Qarayevə və sevilən caz ustası Vaqif Mustafazadənin həyatdan vaxtsız getməsinə həsr etdiyi əsərlərdə alətlə bir başqa cür "danışır". Nəhayət, Azərbaycanın tarixində Xocalı faciəsi günlərinin yaşantısını, onun acısını, yarasını, günahsız insanların, uşaqların ölümünü "ağını" layla janrına müraciət edərək onların ruhuna laylay "söyləyir". Mövzunun işlənməsində bəstəkar variasiya texnikasına xas xüsusiyyətlərdən istifadə edir.

Elnarə Dadaşovanın yaradıcılıq kitabında orqan fəslinin səhifələri kifayət qədər zəngindir. Elnarə Dadaşovanın orqan üçün "Postlüdiya" (Postlüdiya – (lat. posludium; post – sonra, ludus – oyun) musiqi əsərinin sonuna əlavə olunan müstəqil xarakterli hissə, oxuma hissəsinin sonunda instrumental yekundur. Müasir dövrdə bəstəkarlar tərəfindən ayrıca janr kimi istifadə olunur. Əsərin ilk ifaçısı R.İsmayılova olmuşdur), əsəri 1981-ci ildə Azərbaycan cazının dünyamiqyaslı təmsilçisi Vaqif Mustafazadənin xatirəsinə ithafən yazılmışdır. Müəllifin dediklərindən: *"Orqan üçün bəstələdiyim ilk əsərim olan Vaqif Mustafazadənin xatirəsinə "Postlüdiya" istedadlı orqan ifaçısı Rəna İsmayılovanın xahişi ilə ərsəyə gəlmişdir. 1979-cu ildə V.Mustafazadə dünyasını dəyişəndə hamımız dərindən sarsılmışdıq. Rəna xanım da, mən də onun böyük pərəstişkarı idik. Rəna xanım orqan ifaçısı olduğu üçün məndən orqan üçün V.Mustafazadəyə ithaf olunmuş bir əsər yazmağımı xahiş edərək onun nəhəng bir valını mənə verdi ki, onun özündən ilham alaraq yazım"* [20]. Bir məqamı vurğulayaq ki, əsər yazılarkən nə açar işarələri, nə də dəqiq ölçü və xanə xətləri qeyd olunmamış, yalnız sonra redaksiyada bəstəkar bu işarələri müəyyənləşdirərək yazmışdır.

"Postlüdiya" quruluş etibarilə sərbəst inkişafa malik əsas bölmə, onu əhatə edən başlıqda kiçik giriş və sonda dinamik inkişaflı xoraldan ibarətdir. Girişin əsas xüsusiyyəti oktavalı unisonda cüzi xromatizmlə keçən motivin yığcam tezis rolu oynamasıdır. F moll-un D-sına yaxın boya girişə cümlə xüsusiyyəti verir. Giriş iki ibarəyə bölünərək əsas bölmənin ritmik, intonasiya cəhətlərini yığcam şəkildə özündə birləşdirir. Əsas hissənin özü bir-birilə əlaqədə olan bir neçə dalğanın ardıcıllığından ibarətdir. Dalğalar arasında bəzən vizual bağlılıq, bəzən də gözlənilməz fermato birini digəri ilə əvəz edir. Dinamik, metroritmik, zəngin nüanslar intonasiyaları gah bir-birinə yaxın, gah da kəskin ziddiyyətli edir. Bütövlükdə "Postlüdiya"ya təzad xasdır: triollarla kəskin dinamik hərəkətə qarşı kvartol, kvintol, sekstollarla verilmiş onaltılıqların qarşıdurması daha çox linear (üfüqi) münasibətdə baş verir. Bu proses sanki daxili intonasiyadan doğulur. Eyni zamanda vertikal funksional harmoniya həm dayaq rolu oynayır, həm də ümumi musiqi fikrinə dolğunluq verir. Faktiki olaraq bütün bölmələrarası keçidlər girişdən I hissəyə keçid zamanı xüsusi olaraq intonasiya bağlılığı, tematik təkrarlıq, intonasiyanın sekventli inkişaf quruluşu ilə bu cəhətləri özündə əks etdirir.

Birinci hissə üçün improvizəlik səciyyəvi olub, dalğalar şəklində inkişaf edir. Dinamikasından da göründüyü kimi bu bölmə dramatik obrazlıdır və tədricən "sönmə qabiliyyətinə" malikdir.

Birinci hissə (5x) yazılış etibarilə V.Mustafazadənin ifa üslubu ilə uyğunluq təşkil edir. Bu bölmə 4/4 ölçüdə, üst və alt layın pedalsız oktava unisonu ilə (c a b g a) aydın səslənməyə malikdir. *"Əsərin I bölməsində Vaqif Mustafazadənin improvizələrinə diqqət ayıraraq öz baxış bucağımdan onun ifa texnikasını və portretini canlandırmağa çalışmışam"* [20].

Əsərin II hissəsi (86x) "Xoral" adlanaraq dəqiq və ciddi ritmik quruluşa və daha faciəvi ab-havaya malikdir. Bu hissə tamamilə Vaqif Mustafazadənin ölümündən doğan qüssə ilə doludur. "*Mən bu hissədə xoral səslənmə ilə ona sanki bir ağı demək istədim*" – deyə, bəstəkar qeyd edir. Aşağı registrin istifadəsi və leqatolu səslərin ön planda olması bu bölmənin böyük caz ustasının xatirəsinə rekviyem kimi səslənməsinə yol açır. Burada xalq mahnısı kodaya qədər dəyişdirilmiş şəkildə istifadə olunduğu üçün bu bölmə qaçılmaz olaraq sadə iki hissəli quruluş əldə edir. Bəstəkar xalq mahnısının milli tematizmini orqan alətinin tembr rəngarəngliyi ilə zənginləşdirmişdir. Onu da qeyd etmək lazımdır ki, fa mayəli şüştər məqamındakı "Gözəlim sənsən" xalq mahnısı f moll kimi xarakterizə olunur. Burada maraqlı bir xüsusiyyət də homofon ritmik vəhdətlə yanaşı aparıcı tematik xətt arasında ziddiyyətdir. Burada səsaltı elementlərlə verilmiş bas səsin cüzi də olsa daxili tersiyalarla zənginləşdirilməsini görürük.







Elnarə Dadaşovanın orqan üçün yazılmış digər əsərlərindən biri də Ədilə Hüseynzadənin xatirəsinə 1999-cu ildə yazılmış və segah məqamına əsaslanan "Fantaziya"sıdır. Əsər 2006-cı ildə 2-ci dəfə redaktə olunmuşdur. Bəstəkarın ya-

radıcılığına xas olan varinatlı inkişaf prinsipi bu əsərdə də öz əksini tapır. Müəllif orqanın xüsusiyyətlərindən minimal dərəcədə istifadə edərək əsəri kiçik diapozon çərçivəsində məhdudlaşdırmışdır.

Fa diyez mayəli segah məqamına əsaslanan kompozisiyanın ön planda çıxış edən xüsusiyyəti ostinatlıqdır ki, bu da segah məqam-muğam özünəməxsusluğundan irəli gəlir. Fa diyez mayəli segah Avropa tonal sistemində re majora uyğun gəlir və müəllif əsər boyunca re majorun tonikasını da təsdiqləməyi unutmur. Belə münasibətdə fantaziyada tonal sistemlə məqam qarşıdurması meydana çıxır və bu funksional dayaq bütövlükdə ostinatlıq prinsipi yaradaraq əsərin özəyini təşkil edir (Re majorun üst mediantası segahın mayəsidir).

Bəstəkarın 2000-ci ildə orqan üçün yazdığı "Xoral" pyesini belə adlandırması quruluşuna görə deyil, məhz janr və obrazlılıq xüsusiyyətləri ilə bağlı olması ilə əlaqədardır. Əsər f moll tonallığında olub ölçü və tembri pyes boyunca sabit qalaraq ritmik vəhdət üstünlük təşkil edir.

Struktur etibarilə pyes sadə üçhissəli formadadır və bu üçhissəlilik özündə üç dalğanı ehtiva edir. Beləliklə üçhissəli quruluşda eyni periodun hissələr üzrə dalğavari variantlı inkişafı nəzərə çarpır. Bu inkişaf zamanı T-D-S-D funksionallığı əsas təşkil edir. Pyes sonda kiçik koda ilə tamamlanır və o, 68-71-ci xanələri əhatə edir. "Xoral"ın maraqlı cəhəti isə D6 funksiyasında bitməsidir.

E.Dadaşovanın 1982-ci ildə orqan üçün yazılan "Aşıqvarı" pyesi "Əlində sazın qurbanı" aşıq havasının zəngin rəngarəng səs palitrasına köklənərək bu havanın əsasında yazılmışdır. Bəstəkarın bu intonasiyaları məhz orqanın zəngin səslənməsində duyması həm aşıq havalarının improvizə təbiətindən, həm də hər iki alətin – saz və orqanın orkestr səslənməsini özündə ehtiva etməsindən irəli gəlir. Bəstəkarın pyesi yazarkən sıx quruluşlu akkordlardan istifadəsi və əsərin diapozonunu bilərək kiçik və yığcam müəyyən etməsi əslində Türk dünyasının rəmzi sayılan saz alətinin xüsusiyyətlərinə köklənməsi idi. Orqanda sazın səslənməsini əldə etmək üçün bəstəkar əsərdə dayaq akkordlardan istifadə etməklə sazdakı kök simlərin ifasını təsvir edir. Diapazonun kiçik verilməsi həm də əsəri miniatür şəkildə təqdim edərək xalq mahnısının ruhunu yaşatmaq məqsədilədir. Bir xüsusiyyət də bəstəkarın xalq mahnısının mətninə də diqqət yetirməsidir. Burada mahnıda olan "Hey!" nidası sazın ifa tərzinə xas xüsusiyyətilə bağlıdır. Mahnıda bəhs olunan sevgi hisslərinin ilk qığılcımları əsərin ifadə vasitələrinə də sirayət edir. Həmçinin pyes boyu sekunda intervalının hökmranlığı da saz alətinin ifa tərzinə xas səslənmə verir.

Pyesdə "Əlində sazın qurbanı" xalq mahnısının lirik, ahəngdar melodiyasından tam şəkildə istifadə edir. Əsərin forması kiçik olub, mövzusu variant şəklində inkişaf etdirilir. "Aşıqvarı" pyesi sadə iki hissəli formadadır (ikinci hissə birinci hissənin variantlaşdırılmış formasıdır) və koda ilə tamamlanır. Əsərin dəqiq bir ölçüsü olmayıb, əsasən 2-3 xanədən bir dəyişir. Pyesdə homofon-harmonik fakturanın aparıcı rolu bir sıra səsaltı elementlərlə zənginləşdirilmişdir. Bu

cür səsaltı elementlər ikinci hissədə daha mühüm rol oynayaraq mövzunun variantlı inkişafına zəmin yaradır.

Əsərin ümumi xarakterindən danışsaq deyə bilərik ki, kompozisiya olduqca işıqlı və nikbin xarakterə malikdir. Bu təbii ki, bilavasitə onun əsaslandığı xalq mahnısı ilə bağlıdır. Xalq mahnısındakı ruhu saxlayaraq bəstəkar, orqanın yuxarı registrlərinin köməyi ilə burdakı incə duyğuları dinləyiciyə çatdıra bilmişdir. Onu da demək lazımdır ki, xalq mahnısının oxunaqlılığı əsər üçün də xarakterik olub, onu əsl orqan pyesi kimi şərtləndirmişdir.

Bəstəkar bütün xalq mahnısını birinci hissə daxilində təqdim edərək, II hissədə daha çox variantlı inkişafa üstünlük vermişdir. 20-ci xanədən başlayaraq mövzu üst layda bir qədər qatılaşaraq sadə funksiyalarla harmonizə olunur: T-II35-T6-II35-T64-II2(h). Periodun sonuncu xanələrində isə (22-23) harmonik subdominanta funksiyası əsərə maraqlı kolorit verir ($IV^6_5$(h) və $D_9$). Burdakı akkordların üst səsləri isə bilavasitə "Əlində sazın qurbanı" xalq mahnısının melodiyasından təşkil olunub.




Əsər "lya" mayəli rast məqamında yazılsa da, "Əlində sazın qurbanı" xalq mahnısına əsaslandığı üçün şərti olaraq "Mahur Hindi" muğamı ilə də bağlıdır. Bu məqamda biz əsəri bəstəkarın Vaqif Mustafazadənin xatirəsinə həsr olunmuş "Postlüdiya"sı ilə müqayisə edə bilərik. Belə ki, "Postlüdiya"nın şərti olaraq ikinci hissəsində bəstəkar, "Gözəlim sənsən" xalq mahnısı vasitəsilə "Şüştər" muğamına əsaslanır. Deyə bilərik ki, "Aşıqvarı" pyesində Elnarə Dadaşova xalq mahnısının bədii ifadə vasitələri və intonasiyasını qoruyub saxlayaraq özünəməxsus incəlikdə bir əsər yaratmağa nail olmuşdur.

Bəstəkarın orqan üçün "Süsən sünbül" (Bu əsərin də ilk ifaçısı R.İsmayılova olmuşdur) xalq mahnısı əsasında yazılan variasiyaları 1989-cu ildə yazılmışdır. Lirik mahnılara xas mövzu öz yarını itirən, onun yoxluğunu süsən-sünbül bitirərək unutmağa çalışan aşiqin hisslərinin tərənnümü mahnının ən əsas qayəsidir. Mahnı fa mayəli rast məqamı üzərində qurulub, *Allegretto* tempində, 6/8 xanə ölçüsündə olub, üçüncü hissədə kupletli forma əmələ gətirir.

I hissə 20 xanədən təşkil olunmuş perioddur və hər biri 2 xanə genişlənmiş 2 cümlədən ibarətdir. II hissə I hissənin variantlı inkişafıdır, eyni zamanda I və II hissə kuplet formasının bənd bölməsini əmələ gətirir. III hissə isə kuplet forması-

nın nəqarəti və mahnının zil bölməsidir. O da 2 cümlədən ibarət olmaqla II cümləsi I cümlənin variantlı inkişafıdır. Reprizi yığcam şəkildə olub, mayəyə qayıdışdır. Mahnıda yuxarıda göstərilən bölmələr rast məqamının şöbələrinin istinad pərdələrinə əsaslanır: I hissə mayə şöbəsinin istinad pərdələri ətrafında gəzişir. II hissənin I cümləsi mayəyə, II cümləsi hüseyni şöbəsinə istinad edir. Nəqarət bölməsində vilayətiyə əsaslanılır, reprizdə isə yenidən mayəyə qayıdılır. Silsilə mövzu və beş variasiyadan ibarət olub fasiləsiz növbələşir. Variasiyalar bütövlükdə böyük bir kompozisiya təsiri bağışlayır.

Elnarə Dadaşovanın daha bir əsərinə nəzər yetirək. O, 1985-ci ildə yazılan orqan üçün “Sarı gəlin” xalq mahnısı əsasında “Nisgil” əsərini bəstəkar müəllimi Qara Qarayevin xatirəsinə həsr etmişdir. Əsərin soprano və solo versiyası mövcuddur. Soprano versiyasında xalq mahnısının mətni olduğu kimi saxlanılır. Mahnı re mayəli şur məqamı üzərində qurulub, ***Moderato*** tempində və 6/8 xanə ölçüsündədir. Mahnı nəqarətsiz iki kupletli formadadır və quruluş etibarilə reprizli sadə ikihissəli forma əmələ gətirir.

Müəllif kompozisiyada faktiki olaraq xalq mahnısının tematika və quruluş xüsusiyyətlərindən kənara çıxmamışdır. Əsər əvvəldə giriş, sonda isə bir qədər genişlənmiş koda ilə üzvi surətdə bağlanaraq vəhdət əmələ gətirir (nə giriş, nə də kodanın pyesin əsas bölməsi ilə sezurası yoxdur). Xalq mahnısından fərqli olaraq pyes lya mayəli şur məqamında, ***Largetto*** tempində və 3/4 xanə ölçüsündədir. Bu məqamda bəstəkarın pyesin tempini bir qədər ağır müəyyən etməsinin və nəticədə əziz müəlliminin vəfatından doğan dərin kədər və nisgil hisslərini tərənnüm edən bir kompozisiyanın meydana çıxmasının şahidi oluruq. Ümumilikdə pyesə lya miksolidik səs boyası da xasdır.

“Mövzu və 5 variasiya” əsəri ilə Elnarə Dadaşova orqan əsərlərinə davam edir. Bu əsər 1999-cu ildə yazılmışdır. Kompozisiyanın əsasını “Azərbaycan-türk el nəğmələri” kitabında da yer alan “Ninni” xalq mahnısı təşkil edir.

Quruluş etibarilə mövzu və 5 variasiyadan ibarət olan silsilədə xalq mahnısının tematik materialı heç bir dəyişikliyə məruz qalmadan olduğu kimi variasiya olunur, özünəməxsus ostinatlıq yaradaraq xalq mahnısının ifadə tərzindən kənara çıxmır. Əsərdə inkişaf tematika yox, orqan alətinin texniki ifa xüsusiyyətləri və intonasiyalı paylaşmalar hesabına variantlılığa uğraması və mövzunun diatonik harmonizəsi hesabına başa gəlir. Mövzunun, strukturun saxlanılaraq zənginləşdirilməsi əsərin ən gözəçarpan xüsusiyyətlərindəndir. Onu da qeyd etmək lazımdır ki, müəllif bunlarla yanaşı xalq mahnısındakı temp və xanə ölçüsünü də toxunulmaz saxlamışdır.

Bütövlükdə variasiyalar üçün kanonik imitasiyalılıq, Elnarə Dadaşovanın yaradıcılığına xas harmonik qatılaşma üsulu, mövzunun bir registrdən digərinə keçid alaraq özünəməxsus deyişməsi səciyyəvidir. Eyni zamanda variasiyalar arasında keçid zamanı fermatodan istifadə nəzərə çarpır.

Bəstəkar xalq mahnısının orijinallığını qoruyub saxlayaraq hansısa ənənəvi ifadə üsulları ilə həm harmonizə, həm də imitasiyalı inkişaf baxımından bu və digər üsullarla əsərin inkişafına nail olur. Bu zaman xalq mahnısının struktur və intonasiya xüsusiyyətlərini toxunulmaz, olduğu kimi saxlayır.

Elnarə Dadaşova bir Azərbaycanlı kimi öz xalqının faciəli günlərinə böyük etina yanaşmışdır. 2015-ci ildə yazılmış Xocalı soyqırımına qurban getmiş körpələrə həsr olunan Xocalı laylası əsəri bunun bariz sübutudur. Onun həm soprano ilə, həm də solo versiyası mövcuddur. Erməni soyqırımının ağır nəticəsi – “Xocalı” yarası ən çox körpələrin qəlbində və ruhunda iz qoyaraq onların taleyini dəyişdirdi. Bu körpələrin iç səsini çox sadə və kiçik bir pyeslə, sanki layla tək insanların qulağına pıçıldayan Elnarə Dadaşova, “Xocalı laylası” əsərində ənənədən kənara çıxaraq faciəli, dramatik musiqiyə yox, orqanın mülayim, həzin kontekstində bu acının lirik təfsirinə nail olmuşdur.

Pyesdə E.Dadaşova “Azərbaycan-türk el nəğmələri” kitabında da yer alan “Ninni” xalq mahnısına ikinci dəfə müraciət edir. Soprano versiyasında olan mətnə nəzər salsaq görərik ki, müəllif xalq mahnısından olduğu kimi istifadə edib.







Bəstəkar bu əsərdə orqanın özəlliklərini olduqca dar kontekstdə təqdim edir ki, bu da pyesin şarmanka alətinə bənzər səslənməyə gətirib çıxarır. Struktur etibarilə əsər period formasında və mi mayəli segah məqamındadır. Ölçü və tembr pyes boyunca sabit qalır.

Təhlil olunan əsərlərdə ümumi olan məqamlar – bəstəkarın musiqi dilinin milliliyi, muğamdan, aşıq havalarından gələn özəlliklərdən qaynaqlanmasıdır. Folklor nümunələrinə, xalq mahnılarına müraciət edərək onların əsasında yazılan əsərlərdə ümumi olan xüsusiyyət – bu əsərlərin mahnının özü kimi yığcam, lako-

nik olub, kiçik həcm qəlibində inkişaf etməsi, öncə mahnı materialının tam verilərək onun strukturunun, ritmik quruluşunun saxlanılması, sonrakı təkrarların əsasən variant şəklində, bir qismində variasiyaya uğrayaraq inkişafı səciyyəvidir. Əsərlərin əsasən orqanın yuxarı, simlilər, bəzən nəfəslilərə uyğun registrdə (I,II oktava əhatəsində) səslənməsi; bütün bu xüsusiyyətlərin bəzən arxaik – şarmankavari səslənmə effektini yaratması; çox nadir hallarda orqanın pedallarından ön planda istifadə ("Süsən sünbül"); sazın cingiltili, orkestr səslənməsinin alətin simlərinə birbaşa toxunaraq alınmasının mahnı mətnində vurğulanan sözlə ("hey") səslərin birgə səslənişi ("Aşıqvarı"da); bundan əlavə funksional dayaqlardan demək olar ki, bütün əsərlərində istifadə edərək tez-tez, "nöqtələr" kimi vurğulanması ("Segah-fantaziya", "Xoral", "Aşıqvarı"da); akkord "qatılaşması" (yəni bir funksiyanın üzərinə digərinin yerləşdirilməsi ("Postlyudiya", "Nisgil", "Mövzu və 5 variasiya"da); əsərin ümumi ideyasına, ruhuna görə istifadə olunan mahnının ölçü və tembrinin dəyişilərək hüzn, kədər hissini verməsi ("Sarı gəlin" xalq mahnısı əsasında "Nisgil"). Burada müəllimini xatırlayaraq yaşanan hissləri xalq mahnı intonasiyalarında göstərərək mahnının ruhunun dəyişilməsi müşahidə olunur. Eyni bir mahnıya müraciət edərək əsərin dramaturji ideyasından irəli gələrək özək mövzunu müxtəlif cür işləməsini ("Mövzu və 5 variasiya, "Xocalı laylası"), faciəvi, günahsız tökülən qanların ruhuna ağının layla şəklində deyilməsini görürük.

Elnarə Dadaşovanın orqan əsərlərinin təhlilini apararaq yuxarıda qeyd olunan məqamları, səciyyəvi cəhətləri vurğulayaraq bəstəkarın ilk növbədə işlədiyi musiqi materialını və alətin tembr xüsusiyyətlərinə dərindən bələd olaraq alətin möhtəşəm, orkestrə bərabər zəngin tembrində sırf xalq mahnı ruhuna doğma olan registrə müraciət edərək əsərlərinin bir qismində miniatürlüyün xüsusiyyətlərini görmək olur. Bu ab-havada bəstəkar öz dinləyicisini taparaq yaşadığı ovqatla birlikdə əsərin ümumi ideyasını da ötürmüş olur. E.Dadaşovanın orqan üçün yazılan əsərləri XXI əsr Azərbaycan musiqisinin inkişafı dövründə öz baxış bucağından yanaşan bəstəkarın üslubu, yazı texnikası, nəhayət iç dünyası ilə, zamanlar arası dalğaya köklənərək onun sevdiyi müəllimlərinin, sevilən caz ifaçısının obrazlarını təsvir edən musiqi intonasiyaları ilə yaxından tanış olmağa şərait yaradacaq.

**ƏDƏBİYYAT:**

**Azərbaycan dilində**

1. Aslanova L. Elnarə Dadaşovanın kamera-instrumental yaradıcılığı milli ənənələr kontekstində. – Bakı – 2024 – 26 s.
2. Azərinform. Orqan səslənir. //"Azərbaycan gəncləri" qəzeti – 28.11.1988
3. Dadaşova E. Azərbaycan xalq rəqslərində melodik yönəlmə və modulyasiyalar, - Bakı – 2008 - 154 s.
4. Dadaşzadə Z.A. Elnarə Dadaşova. – Bakı: Şərq-Qərb nəşriyyatı, – 2015; – 32 s.
5. Dadaşzadə Z.A. Elnarə Dadaşovanın nurlu səslər aləmi. // "Musiqi dünyası" jurnalı –2012, № 1/50– 98 s.
6. Əsədov B. Titrəsin göylərdə ərğənun səsi. // "Azərbaycan" qəzeti, 30.07.2003

7. Əsgərov Ə. Mahir ifaçı. // “Azərbaycan qadını” qəzeti, –18.05.1987
8. Hacıbəyli Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları. – Bakı: Yazıçı, – 1985. – 151 s.
9. Xəlilzadə F. Azərbaycanlı bəstəkar Avropada sevilir. // “Azərbaycan” qəzeti, – 09.04.2009
10. Hüseynova G. Musiqi əsərlərinin təhlilinə aid metodik tövsiyələr. – Bakı: Adiloğlu, – 2009. – 71 s.
11. İmanov R. Şəhərimizin konsert salonlarında orqan musiqisi gecələri. // “Bakı” qəzeti -13.02.1969
12. İsmayılov M.S. Azərbaycan xalq musiqisinin məqam və muğam nəzəriyyəsinə dair elmi-metodik oçerklər. – Bakı: Elm, 1991 – 120 s.
13. Məmmədov Ə. Ustad bəstəkarın yetirməsi. // “Ədəbiyyat və İncəsənət” qəzeti - 18.07.1986
14. Səfərova Z. Azərbaycan musiqi elmi. –Bakı: Elm, – 1988. – 588 s.
15. Yaqubova T. Alətlərin kralı. – Bakı: Nurlan – 2016; – 150 s.

**Rus dilində**

16. Ашумова А. Пути развития органной культуры в Азербайджане. – Баку: Мутарджим – 2013. – 120 с.
17. Мазел Л. “Строение музыкальных произведений. – Москва: Музыка – 1986; – 527 с.
18. Якубова Т. Путеводные звёзды. – Баку: Afpoliqraf, – 2019; – 259 с.
19. Якубова Т. Словарь органной терминологии (на шести языках). – Баку: Нурлан, – 2005, – 94 с.

**Saytoqrafiya**

20. Musiqi dünyasında iz qoyan sənətkar. http://anl.az/down/meqale/xalqcebhesi/2012/yanvar/228460.htm
21. Orqan musiqisinə həsr olunmuş plenumun müzakirəsi. http://www.musigi-dunya.az/new/added.asp?action=print&txt=470

**Müsahibə:**

22. Elnarə Dadaşova ilə müsahibə. 18 dekabr 2021

**Назлы АЛЛАХВЕРДИЕВА**
Музыковед

# ОРГАННОЕ ТВОРЧЕСТВО ЭЛЬНАРЫ ДАДАШОВОЙ

***Аннотация:*** *Творческое использование азербайджанскими композиторами богатых тембровых возможностей органного инструмента, знание его великолепия, «рассуждение» о широких потенциальных возможностях инструмента на языке фольклорной музыки, любовных напевов, наконец, мугамных интонаций обогащает отрасли органной музыки в целом, разнообразя их в национальном духе. В этом смысле произведения Эльнары Дадашовой, написанные для органа, отличаются своей уникальностью. Анализ органных произведений композитора, прослеживание его уникального почерка, понимание идеи каждого произведе-*

*ния, изучение того, как композитор европейский инструмент адаптировал к национальному духу, входят в число основных целей.*

***Ключевые слова:*** *орган, музыка, композитор, анализ, мугам, момент, Эльнара Дадашова*

**Nazlı ALLAHVERDIYEVA**
Musicologist

## ORGAN CREATIVITY OF ELNARA DADASHEVA

***Abstract:*** *The fact that Azerbaijani composers know and use the rich timbre possibilities of the organ instrument, its magnificence, and "speak" the instrument's wide potential possibilities in the language of folklore music, ashug melodies, and finally mugham intonations, enriches the branches of organ music in general by diversifying them in the national spirit. In this sense, Elnara Dadashova's works written for the organ are also distinguished by their uniqueness. The main goals set are to analyze the composer's organ works and follow his unique style, to understand the idea of each work, and to study how the European instrument is rooted in the national spirit by the composer.*

***Keywords:*** *organ, music, composer, analysis, mugham, maqam, Elnara Dadashova*

**Rəyçilər:** sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Həsənzadə Xatirə
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Qulamova Jalə